# Azərbaycan-İtaliya əməkdaşlığı enerji sahəsi ilə kifayətlənmir

## İtaliya Prezidenti Sercio Mattarella: "Azərbaycan geniş şəkildə çox nüfuzlu bir tərəfdaşdır"

**Azərbaycan-İtaliya iqtisadi əməkdaşlığı çoxşaxəlidir. Energetikadan başlamış sənaye istehsalına qədər geniş sahələri əhatə edən bu əməkdaşlıq artıq humanitar istiqamətli layihələrə də yol açır. Bu da o deməkdir ki, ölkələrimiz arasında biri 10, digəri isə 5 il əvvəl imzalanmış strateji tərəfdaşlıq sənədlərində nəzərdə tutulanlar tam icra edilir.**

İtaliya Prezidenti Sercio Mattarellanın ölkəmizə rəsmi səfəri zamanı istər dövlətimizin başçısı İlham Əliyevlə görüşlərində, istərsə də hər iki Prezidentin mətbuata bəyanatlarında bu, bir daha vurğulandı. Prezidentimiz iqtisadi sahədə İtaliyanın bizim üçün birinci ticarət tərəfdaşı olduğunu xatırladaraq dedi: "İldən-ilə ticarət dövriyyəmiz artmaqdadır. Energetika sahəsində bir çox önəmli layihələr icra edilmişdir. Xüsusilə Azərbaycan neftini və qazını İtaliyaya ixrac etməklə biz dünya bazarlarına geniş həcmdə öz təbii resurslarımızı göndərə bilmişik. Eyni zamanda bir çox ölkələrin enerji təhlükəsizliyinə də öz töhfəmizi vermişik".

İtalliya Prezidenti Mattarellanın ölkəmizə yeddi il əvvəlki səfəri xatırlandı. Bu həmin vaxt idi ki, gündəlikdə TAP (Trans-Adriatik Qaz Boru Kəməri) layihəsinin icrası məsələsi dayanırdı. Müxtəlif problemli məqamlar mövcud idi. Prezident Sercio Mattarellanın səfərdən sonra şəxsən bu məsələyə müdaxilə etməsi layihənin uğurla icra olunmasına imkan verdi.

Budur, artıq beş ilə yaxındır TAP vasitəsilə Azərbaycan qazı İtaliyaya ixrac edilir. Qeyd edək ki, TAP-ın fəaliyyətə başlaması ilə təşəbbüskarı və aparıcı qüvvəsi Azərbaycan olan "Cənub qaz dəhlizi" layihəsi qələbə çaldı. Sonuncu seqment olduğundan bu kəmər 3500 kilometrlik möhtəşəm layihəni tamamladı. Belə ki, Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz" yatağının işlənməsinin ikinci mərhələsi çərçivəsində çıxarılan qazı Gürcüstandan keçməklə Türkiyəyə və oradan da Avropaya daşıyan "Cənub qaz dəhlizi" üç kəmərdən - genişləndirilmiş CQBK (Cənubi Qafqaz Boru Kəməri), TANAP (Trans-Anadolu Qaz Boru Kəməri) və TAP-dan ibarətdir.

TAP uzun məsafə qət edərək Azərbaycan qazını İtaliyanın cənubuna, bu ölkədən də Qərbi Avropaya çatdırır. Bu, uzunluğu təxminən 878 kilometr olan boru xəttidir. Onun 550 kilometri Yunanıstanın, 210 kilometri Albaniyanın ərazisindən, 105 kilometri Adriatik dənizinin altından keçir. Xəttin bir neçə kilometrlik hissəsi İtaliyada quru sahəyə çıxır və burada kəmər ölkənin qaz nəqliyyatı şəbəkəsi ilə birləşir. Boru xətti 2020-ci ilin son günündən başlayaraq fasiləsiz və təhlükəsiz fəaliyyət göstərir.

Prezident İlham Əliyev mətbuata bəyanatında diqqətə çatdırdı ki, bu gün Azərbaycan "Cənub qaz dəhlizi" vasitəsilə 14 ölkəyə təbii qazı ixrac edir: "İldən-ilə bizim əhatə dairəmiz artır və bu gün boru kəmərləri ilə ixrac edilən təbii qazın coğrafi əhatəsinə görə Azərbaycan dünyada birinci yerdədir. Azərbaycan nefti İtaliyanın neft balansında birinci yerdə, Azərbaycan qazı isə ikinci yerdədir. Yəni bu əməkdaşlıq həm güclü tərəfdaşlıqdan xəbər verir, həm də biz uzun illər etibarlı tərəfdaşlar kimi bir-birimizi dəstəkləmişik. Əgər bu səmimi münasibətlər olmasaydı, qarşılıqlı inam olmasaydı, bu layihələrin həyata keçirilməsi mümkün olmazdı".

Ölkəmizə səfəri zamanı İtaliya Prezidentinə məlumat verildi ki, Azərbaycan hazırda Avropa İttifaqı ilə elektrik enerjisinin ixracı üzərində işləyir. Elektrik xətlərinin çəkilməsi ilə bağlı texniki-iqtisadi əsaslandırma hazırlanmaqdadır. Beləliklə, "Cənub qaz dəhlizi"nin, TAP-ın açdığı yol daha böyük layihələrin icrasına imkan verir. Elektrik enerjisi, o cümlədən Xəzərin dibi ilə Orta Asiyadan Azərbaycana və ondan sonra Avropa məkanına ötürüləcək elektrik enerjisi əməkdaşlığımızı daha da saxələndirəcək.

Göründüyü kimi, planlar genişdir. Həm İtaliya ilə ikitərəfli formatda, həm Avropa İttifaqı ilə bütövlükdə energetika sahəsində yeni layihələrin həyata keçirilməsi üzərində çalışılır. Azərbaycan-İtaliya əlaqələri eyni zamanda yerləşdiyimiz bölgənin inkişafı üçün də önəmlidir və Avropa İttifaqı ilə əlaqələrimizə müsbət təsir göstərir. İtaliya həmişə ölkəmizlə Avropa İttifaqı arasında daha sıx münasibətlərin qurulmasına öz dəstəyini verib. Prezidentimiz də bu ölkə ilə strateji tərəfdaşlığımızın həm rəsmi sənədlərdə, həm həyatda, praktik işlərdə özünü büruzə verdiyini vurğulamış və demişdir: "Hesab edirəm ki, bir-birindən uzaqda yerləşən ölkələr arasındakı münasibətlərin qurulması bizim timsalımızda bir örnək ola bilər".

Təsadüfi deyil ki, İtaliya Prezidenti Azərbaycanın geniş şəkildə çox nüfuzlu bir tərəfdaş olduğunu vurğuladı. "Əməkdaşlığımız - Azərbaycanın bizə açıqlığı, bizimlə gördüyü işlər, işbirliyimiz göz qabağındadır" dedi. İllər əvvəl Sumqayıtda İtaliya şirkətləri tərəfindən inşa edilmiş böyük bir sənaye müəssisəsinin, budəfəki səfərində isə İtaliya-Azərbaycan Universitetinin açılışında iştirak etdiyini də dilə gətirdi, həmçinin bunun əhəmiyyətini vurğuladı: "Bu, artıq bizim enerji, sənaye əməkdaşlığımızdan sabaha açılan yeni bir yol oldu və İtaliya ilə Azərbaycan artıq mədəniyyət, humanitar və təhsil sahələrində əməkdaşlığa başladılar. Bu, əslində, strateji tərəfdaşlığımızın və 10 il əvvəl imzalanmış sazişdə qeyd olunanların tam, səmərəli şəkildə həyata keçirilməsi deməkdir. Bu, bizim ölkələrimizin münasibətlərini inkişaf etdirir".

*Flora SADIQLI,*
*"Azərbaycan"*

Azərbaycan.-2025.- 2 oktyabr (№211).- S.7.